# Sakinlərin Müraciət Xidmətinin 8 illik fəaliyyəti barədə

Yerli icra hakimiyyəti orqanları arasında ilk olaraq Binəqədi Rayon İcra Hakimiyyətində yaradılmış Sakinlərin Müraciət Xidmətinin bu gün fəaliyyətinin 8 ili tamam olur.

Xidmət vətəndaşlarla operativ ünsiyyətin yaradılması, onların rayonda fəaliyyət göstərən dövlət qurumlarına müraciət imkanlarının asanlaşdırılması məqsədilə yaradılmış, bütün müasir avadanlıqlarla və sürətli kommunikasiya sistemi ilə təchiz edilərək 24 saat fasiləsiz olaraq fəaliyyət göstərir. Bütün bu imkanlar Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən vətəndaşlara göstərilən xidmətlərin hər bir vətəndaş üçün əlçatan olmasını təmin etmək məqsədini daşıyır.

Fəaliyyətə başladığı dövrdən Sakinlərin Müraciət Xidmətində cavablandırılan zənglərin sayı **245 852** vahid, tərtib edilmiş icraat vərəqələrinin sayı **49 401** vahid olmuşdur.



8 il ərzində icraat vərəqəsi açılmış **49401** vahid müraciətin **40084** vahidi və ya **81.1** %-i tam, **3609** vahidi və ya **7.3** %-i qismən, **5709** vahidi və ya **11.6** %-i müvafiq izahat verilərək həll edilmişdir.



**8 illik fəaliyyəti ərzində Sakinlərin Müraciət Xidmətinin**

**Əsas Fəaliyyət göstəriciləri**

**Daxil olan zənglərin 30 saniyə ərzində cavablandırmaya qəbul faizi - Xidmət səviyyəsi - Bu göstərici SMX-ya müraciət edən şəxslər üçün xidmətin hər zaman nə dərəcədə əlçatan olmasının əsas göstəricisidir. 2013-2020-ci illər üzrə xidmət səviyyəsi 85.9 % olmuşdur.**



**Müraciətlərin daxil olma istiqamətləri (Sahə və qəsəbə ərazi icra nümayəndəlikləri üzrə)**



| Daxil olan müraciətlərin kateqoriyalar üzrə bölgüsü (8 il ərzində) | |
|---|---|
| Su-kanalizasiya sahəsi | 19583 |
| Qaz təchizatında yaranmış problemlərlə əlaqədar | 12395 |
| Lift təchizatı ilə bağlı | 4911 |
| İstilik təchizatı ilə bağlı | 4328 |
| Çoxmənzilli yaşayış binalarının mənzil fondu ilə bağlı | 2859 |
| Elektrik enerjisi təchizatı ilə bağlı | 2037 |
| Bələdiyyələrin fəaliyyəti ilə əlaqədar | 1481 |
| Küçə və prospektlərin işıqlandırılması ilə əlaqədar | 691 |
| Yaşıllaşdırma sahəsi ilə bağlı | 474 |
| Rabitə sahəsi ilə bağlı | 76 |
| Sakinləri narahat edən digər məsələlər | 566 |